## *ALİ MƏCLİSİN İCLASI*

*17 aprel 2026-cı il. Saat 11.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini **Bəxtiyar Məmmədov** sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputatlar!

Hörmətli media nümayəndələri, hamınızı salamlayıram!

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyasının altıncı iclası keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında 43 deputat iştirak edir.

| **Qeydiyyat** | (saat 11.03 dəq.) |
|---|---|
| İştirak edir | 43 |
| Yetərsay | 31 |

İclas öz işinə başlamağa səlahiyyətlidir.

Hörmətli deputatlar, bugünkü iclasın gündəliyinə 3 məsələ daxildir. Gündəlik sizlərə təqdim olunmuşdur. Xahiş edirəm, gündəliyə münasibət bildirəsiniz.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.04 dəq.) |
|---|---|
| Lehinə | 43 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 43 |
| Nəticə: Qəbul edildi | |

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 43 deputat gündəliyin lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Gündəlik qəbul olundu.

Gündəlikdə duran birinci məsələ “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin ikinci oxunuşda müzakirəsidir.

Qanun layihəsi 10 aprel 2026-cı il tarixdə keçirilmiş plenar iclasda müzakirə edilmiş, Ali Məclisin protokol qaydasında qərarı ilə birinci oxunuşda qəbul edilmişdir.

Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi ilə əlaqədar məlumat verməsi üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

Buyurun, Əjdər müəllim!

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli sessiya iştirakçıları!

"Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi 10 aprel 2026-cı il tarixdə Ali Məclisin plenar iclasında qəbul edilmişdir.

Diqqətinizə çatdırım ki, Ali Məclisin Daxili Nizamnaməsinə əsasən birinci oxunuşda qəbul edilmiş qanun layihəsinə dair təklif və iradları aparıcı komitə öyrənir və ümumiləşdirir, layihə üzrə dəyişikliklərə komitənin iclasında baxılır və komitə bu dəyişikliklərlə razı olduqda onları layihənin mətninə daxil edir. Sonda yenidən işlənilmiş qanun layihəsi ikinci oxunuşda baxılmaq məqsədilə Ali Məclisin iclasının gündəliyinə daxil edilmək üçün Ali Məclisin sədrinə göndərilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin layihənin ikinci oxunuşa hazırlanması ilə bağlı keçirilən 16 aprel 2026-cı il tarixli iclasında deputatlar tərəfindən "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi ilə bağlı hər hansı təklif və ya irad bildirilməmişdir. Bu səbəbdən komitə protokol qaydasında qəbul etdiyi qərara əsasən layihəni ikinci oxunuşda baxılmaq məqsədilə Ali Məclisin iclasının gündəliyinə daxil edilmək üçün Ali Məclisin sədrinə göndərmişdir.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinə ikinci oxunuşda baxıla bilər.

Sağ olun!

**Sədrlik edən.** Sağ olun, Əjdər müəllim!

Hörmətli deputatlar!

Qanun layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olan varmı?

Yoxdur.

Hörmətli həmkarlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.3-cü maddəsinə əsasən ikinci oxunuşda müzakirə edilən qanun layihəsinin əsas kimi qəbul edilməsi barədə protokol qaydasında qərar qəbul edilməlidir.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin əsas kimi qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.06 dəq.) |
|---|---|
| Lehinə | 43 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 43 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

“Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin ikinci oxunuşda əsas kimi qəbul edilməsi ilə bağlı səsvermədə iştirak edən 43 deputat lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun layihəsi əsas kimi qəbul edildi.

Daxili Nizamnamənin 20-ci maddəsinə əsasən qanun layihəsi ikinci oxunuşdan qəbul edilir və redaktə edilmək üçün aparıcı komitəyə qaytarılır.

Deputatlardan kim “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin ikinci oxunuşda qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.07 dəq.) |
|---|---|
| Lehinə | 43 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 43 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Qanun layihəsinin ikinci oxunuşu ilə bağlı səsvermədə iştirak edən 43 deputat lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Gündəlikdə duran ikinci məsələ "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda müzakirəsidir.

Bildiyimiz kimi, "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli 340-VII KQD nömrəli Konstitusiya Qanunu ilə əlaqədar ötən plenar iclasda "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun ləğv edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanunu qəbul edilmişdir.

Müvafiq qanuna uyğunlaşdırma məqsədi ilə "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi hazırlanmış və deputatlara paylanılmışdır.

Layihə Hüquq siyasəti komitəsinin 16 aprel 2026-cı il tarixli iclasında komitənin sədri, sədr müavini və üzvlərinin, həmçinin Ali Məclis Aparatının nümayəndələrinin iştirakı ilə müzakirə edilmişdir.

Qanun layihəsi barədə məlumat vermək və komitənin rəyini bildirmək üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

Buyurun, Əjdər müəllim!

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli sessiya iştirakçıları!

10 mart 2026-cı tarixdə qüvvəyə minmiş "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tələblərinə əsasən "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun ləğv edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi hazırlanaraq qəbul edilmiş və qeyd edilən qanun ləğv edilmişdir. "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi müvafiq qanunun qeyd edilən normativ hüquqi aktlara uyğunlaşdırılması məqsədi ilə hazırlanmışdır.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 8-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 8.2.1-ci maddədən ", Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə Müvəkkilinin statusu" sözləri çıxarılsın.

2. 8.2.2-ci maddənin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin.

3. 8.2.3-cü və 8.2.4-cü maddələr ləğv edilsin.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi 16 aprel 2026-cı il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsində baxılmışdır. Komitənin iclasında qanun layihəsi Hüquq siyasəti komitəsinin üzvlərinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının əməkdaşlarının iştirakı ilə müzakirə edilmişdir. Komitə iclasında rəy layihəsi hazırlanmış, səsvermə keçirilmiş və rəy qəbul edilmişdir. Qanun layihəsi uyğunlaşdırma xarakteri daşıdığından bir oxunuşda baxılır.

İcazənizlə, rəyi diqqətinizə çatdırıram.

Yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin rəyi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinə daxil olmuş "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi 10 aprel 2026-cı il tarixdə qəbul edilmiş "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun ləğv edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanununa uyğunlaşdırma məqsədi ilə hazırlanmışdır.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi komitə üzvlərinə paylanılmış, komitənin 16 aprel 2026-cı il tarixli iclasında komitənin sədri, sədr müavini və üzvlərinin, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının nümayəndələrinin iştirakı ilə müzakirə olunmuşdur. Qanun layihəsi "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının 2011-ci il 19 iyul tarixli 6-IV QN nömrəli Qanununun tələblərinə uyğun hazırlanmışdır.

Yuxarıda qeyd edilənləri və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 6.2-ci maddəsini nəzərə alaraq Ali Məclisin Hüquq siyasəti komitəsi qeyd edir ki, qanun layihəsi Ali Məclisin iclasının gündəliyinə daxil edilmək üçün təqdim oluna bilər.

Sağ olun!

**Sədrlik edən.** Sağ olun, Əjdər müəllim!

Qanun layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olan varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Ali Məclisin Daxili Nizamnaməsinin 18.1-ci maddəsinə əsasən Ali Məclisdə uyğunlaşdırma məqsədi ilə hazırlanmış qanun layihələrinə bir oxunuşda baxılır.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.14 dəq.) |
|---|---|
| Lehinə | 43 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 43 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 43 deputat "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun qəbul edildi.

Gündəlikdə duran üçüncü məsələ "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda müzakirəsidir.

"Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli 340-VII KQD nömrəli Konstitusiya Qanunu ilə Ali Məclisin və Nazirlər Kabinetinin səlahiyyətlərində dəyişiklikləri nəzərə alaraq, həmçinin Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 6-cı bəndində əks etdirilmiş Ali Məclisin Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun həyata keçirilməsi üçün yeni qanun layihəsi hazırlanmış, deputatlara təqdim edilmişdir.

Layihə Hüquq siyasəti komitəsinin 16 aprel 2026-cı il tarixli iclasında komitə sədri, sədr müavini və üzvlərinin, həmçinin Ali Məclis Aparatının nümayəndələrinin iştirakı ilə müzakirə olunmuşdur.

Qanun layihəsi barədə məlumat vermək və komitənin rəyini bildirmək üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

Buyurun, Əjdər müəllim!

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli həmkarlar!

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi dövlət idarəçiliyində hakimiyyət qolları arasında balansın qorunmasına, xüsusilə qanunverici və icra hakimiyyəti münasibətlərinin düzgün tənzimlənməsinə mühüm təsir göstərəcəkdir.

Bu baxımdan Naxçıvan Muxtar Respublikasında Ali Məclisin Nazirlər Kabinetinə etimad məsələsinin hüquqi mexanizmlərlə təmin olunması dövlət idarəçiliyinin effektivliyini artıran əsas amillərdən biridir. Təqdim olunan qanun layihəsi məhz bu məqsədə xidmət edərək parlamentin institusional əsaslarını gücləndirməyi hədəfləyir.

Layihə Naxçıvan Muxtar Respublikası Konstitusiyasında nəzərdə tutulmuş Ali Məclisin Nazirlər Kabinetinə etimad məsələsini həll etmək hüququnun daha effektiv şəkildə həyata keçirilməsinə yönəlib. Bu hüququn praktiki mexanizmlərlə təmin olunması qanunverici hakimiyyətin formal deyil, real təsir gücünə malik olmasını şərtləndirir. Qanun layihəsi bu baxımdan konstitusion normanın tətbiqini konkret prosedurlar vasitəsilə təmin edir.

Müasir hüquqi dövlətlərdə parlament nəzarəti institutunun effektivliyi icra hakimiyyətinin məsuliyyətli və şəffaf fəaliyyətinin əsas təminatlarından biri hesab olunur. Bu mənada yeni hazırlanan qanun layihəsi mütərəqqi xarakter daşıyır.

Qanun layihəsinin müddəalarına nəzər yetirək:

M a d d ə 1. **Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qarşısında hesabatı**

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti hər il martın 31-dək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yaz sessiyasında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin fəaliyyəti haqqında hesabat verir.

M a d d ə 2. **Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən sorğu göndərilməsi**

2.1. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə onun səlahiyyətlərinə aid edilmiş məsələlərə dair sorğu ilə müraciət edə bilər.

2.2. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sorğusuna cavab Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetini təmsil edən səlahiyyətli şəxs tərəfindən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında bir aydan gec olmayaraq təqdim edilir.

M a d d ə 3. **Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin üzvlərinə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının sorğuları**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının sorğularına cavab vermək üçün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin iş qaydası ilə müəyyən edilmiş hallarda Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin üzvləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclaslarında iştirak edirlər.

M a d d ə 4. **Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun məhdudlaşdırılması**

4.1. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad göstərilməsi məsələsi Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının seçkiləri gününə 6 aydan az qaldıqda müzakirəyə çıxarıla bilməz.

4.2. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad göstərilməsi məsələsi eyni məsələyə dair birinci müzakirədən yalnız 6 ay keçdikdən sonra təkrarən yenidən müzakirəyə çıxarıla bilər.

Ümumilikdə, təqdim olunan hüquqi mexanizmlər Naxçıvan Muxtar Respublikasında idarəetmə sisteminin daha səmərəli, məsuliyyətli və balanslı fəaliyyətinə xidmət edir. Bu dəyişikliklər parlament nəzarətinin gücləndirilməsi ilə yanaşı, icra hakimiyyətinin dayanıqlı və ardıcıl fəaliyyətini təmin edən optimal hüquqi çərçivə yaradır.

“Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi 16 aprel 2026-cı il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsində baxılmışdır. Komitənin iclasında qanun layihəsi Hüquq siyasəti komitəsinin üzvlərinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının əməkdaşlarının iştirakı ilə müzakirə edilmiş, layihə barədə ətraflı məlumat verilmiş, layihə iclas iştirakçılarının müzakirəsinə təqdim olunmuşdur. Komitə iclasında rəy layihəsi hazırlanmış, səsvermə keçirilmiş və rəy qəbul edilmişdir. Qəbul edilmiş rəyə əsasən “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin gündəliyinə daxil edilməsi üçün aidiyyəti üzrə təqdim edilmişdir.

İcazənizlə, rəyi diqqətinizə çatdırıram.

Yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin rəyi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinə daxil olmuş "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 6-cı bəndində əks etdirilmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun həyata keçirilməsi üçün əlavə təminatların yaradılması məqsədi ilə hazırlanmışdır.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi komitə üzvlərinə paylanılmış, komitənin 16 aprel 2026-cı il tarixli iclasında komitənin sədri, sədr müavini və üzvlərinin, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının nümayəndələrinin iştirakı ilə müzakirə edilmişdir. Qanun layihəsi "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının 2011-ci il 19 iyul tarixli 6-IV QN nömrəli Qanununun tələblərinə uyğun hazırlanmışdır.

Yuxarıda qeyd edilənləri və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 6.2-ci maddəsini nəzərə alaraq Ali Məclisin Hüquq siyasəti komitəsi qeyd edir ki, qanun layihəsi Ali Məclisin iclasının gündəliyinə daxil edilmək üçün təqdim oluna bilər.

Çox sağ olun!

**Sədrlik edən.** Sağ olun, Əjdər müəllim!

Qanun layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya hər hansı bir təklifi olan varmı?

Buyurun, Əziz müəllim!

**Ə.Qasımov,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədr müavini.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli həmkarlar və iclas iştirakçıları!

Müzakirəyə təqdim olunan "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi muxtar respublikada dövlət idarəçiliyi sisteminin daha da təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində atılan növbəti fundamental addımdır. Bu sənəd hakimiyyət qolları arasında mövcud olan sağlam işgüzar münasibətləri hüquqi müstəvidə daha da möhkəmləndirir və qarşılıqlı fəaliyyətin daha səmərəli qurulmasına xidmət edir.

Layihənin məqsədi dövlət idarəçiliyinin iki mühüm qolu - qanunvericilik və icra hakimiyyəti arasında institusional koordinasiyanı təmin etməkdir.

İcazənizlə, layihənin gətirdiyi üstünlükləri bu konstruktiv prizmadan diqqətinizə çatdırım.

İlk olaraq Nazirlər Kabinetinin illik fəaliyyəti barədə Ali Məclisə hesabat verməsi, hökumətin həyata keçirdiyi islahatların və görülmüş işlərin parlament tribunası vasitəsilə ictimaiyyətə daha dolğun və şəffaf şəkildə çatdırılmasına xidmət edir. Bu, hökumətin öz uğurlarını təqdim etməsi, deputatların isə bu nailiyyətləri təhlil edərək gələcək inkişaf üçün təkliflərini verməsi üçün bir dialoq imkanıdır.

Sorğu mexanizminin hüquqi çərçivəyə salınması Ali Məclislə Nazirlər Kabineti arasında çevik və məsuliyyətli bir kommunikasiya körpüsü yaradır. Bu qayda məlumat mübadiləsini sürətləndirir və hər iki qurumun iş rejimini daha sistemli hala gətirir. Belə bir mexanizm, əslində, icraedici orqanların fəaliyyətindəki səmərəliliyin parlament tərəfindən dəstəklənməsidir.

Nazirlər Kabineti üzvlərinin Ali Məclisin iclaslarında iştirak etməsi və deputat sorğularını cavablandırması icra hakimiyyəti ilə qanunverici hakimiyyətin eyni məqsəd - vətəndaş məmnuniyyəti və dövlət maraqları ətrafında birləşməsinin bariz nümunəsidir. Bu proses deputatların seçicilərini maraqlandıran və onları düşündürən məsələləri hökumətin diqqətinə çatdırmasına, hökumətin isə bu məsələləri operativ həll etməsinə hüquqi zəmin yaradır.

Layihədə etimad məsələsinin həlli ilə bağlı nəzərdə tutulan müddət hər iki qurumun siyasi məsuliyyətinə və hüquqi dövlət ənənələrinə verilən əhəmiyyəti göstərir. Bu, dövlət aparatının işləkliyini qoruyan, hər hansı subyektiv yanaşmadan sığortalayan və idarəetmədə sabitliyi təmin edən mühüm amildir.

Bu layihə Naxçıvan Muxtar Respublikasında müasir və balanslı idarəetmə modelinin formalaşdırılmasına xidmət edən mühüm normativ təşəbbüsdür. Qanunvericilik təkmilləşdikcə həm Ali Məclisin təmsilçilik imkanları genişlənir, həm də Nazirlər Kabinetinin fəaliyyəti daha şəffaf və çevik xarakter alır. Bütün bunları nəzərə alaraq qanun layihəsini yüksək qiymətləndirir və onun qəbul edilməsini dəstəkləyirəm.

Diqqətinizə görə sağ olun!

**Sədrlik edən.** Sağ olun, Əziz müəllim!

Əlavə çıxış etmək istəyən varmı?

Buyurun, Mövlan müəllim!

**M.Məmmədov.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli iclas iştirakçıları!

Bu gün müzakirəyə çıxarılan məsələlər dövlət idarəçiliyinin daha da təkmilləşdirilməsi və qanunvericilik fəaliyyətinin səmərəliliyinin artırılması baxımından əhəmiyyətlidir.

Əvvəlcə qeyd etmək istərdim ki, “Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun ləğv edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanunu artıq qəbul olunmuşdur ki, bu dəyişiklik mövcud qanunvericilikdə müəyyən uyğunlaşdırma aparılmasını zəruri edir. Məhz bu baxımdan “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında” Naxçıvan Muxtar Respublikası Qanununa dəyişiklik edilməsi təbii və zəruri addımdır. Təklif olunan dəyişikliklər komitələrin fəaliyyətinin yeni vəziyyətə uyğunlaşdırılmasına, işin daha səmərəli təşkili və qanunvericilik prosesində ardıcıllığın təmin olunmasına xidmət edəcək.

İkinci mühüm məsələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun həyata keçirilməsi üçün əlavə təminatların yaradılmasıdır ki, bu, icra hakimiyyəti ilə qanunverici hakimiyyət arasında institusional əlaqələrin inkişafı baxımından xüsusi əhəmiyyətə malikdir. Təklif olunan əlavə təminatlar bu prosesin daha aydın, obyektiv və hüquqi cəhətdən əsaslandırılmış şəkildə həyata keçirilməsinə şərait yaradacaq. Bu isə həm hökumətin fəaliyyətində hesabatlılığı və şəffaflığı artıracaq, həm də dövlət idarəçiliyində balans və qarşılıqlı nəzarət mexanizmlərini daha da möhkəmləndirəcəkdir.

Nəticə etibarilə, hər iki məsələ dövlət idarəçiliyində institusional inkişafın təmin olunmasına, qanunvericilik və icra hakimiyyətləri arasında sağlam münasibətlərin formalaşdırılmasına xidmət edir. Hesab edirəm ki, bu dəyişikliklərin qəbul edilməsi muxtar respublikada müasir idarəetmə prinsiplərinin daha da möhkəmləndirilməsinə mühüm töhfə verəcəkdir.

Diqqətiniz üçün təşəkkür edirəm!

**Sədrlik edən.** Sağ olun, Mövlan müəllim!

Başqa çıxış etmək istəyən varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 19.4.1-ci maddəsinə əsasən qanun layihəsinə birinci oxunuşda baxılması nəticəsində Ali Məclisin protokol qaydasında qəbul edilən qərarı ilə layihə birinci oxunuşda qəbul edilir və onun üzərində iş davam etdirilir.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.29 dəq.) |
|---|---|
| Lehinə | 43 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 43 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 43 deputat "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar!

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyasının növbəti iclası öz işini başa çatdırdı.

Sağ olun!